# Məqalələr




## ***1918-ci il mart soyqırımı***

Azərbaycan tarixində çoxlu şanlı səhifələrlə yanaşı faciələr və soyqırımlı səhifələr də vardır. Bu dəhşətli hadisələrdən biri 1918-ci il mart-aprel aylarında erməni millətçiləri tərəfindən yaşanmışdı. Mart soyqırım təkcə Azərbaycan tarixində deyil, dünya tarixində törədilən ən qanlı faciələrdən biridir.

Hələ 1917-ci ilə Rusiyada baş vermiş oktyabr inqilabı nəticəsində erməni millətçisi Stepan Şaumyanın başçılığı ilə bolşevik Bakı Soveti Bakıda hakimiyyəti ələ keçirmişdi. Onlar türk-müsəlman əhalisini qırmaq, Bakını rus-erməni şəhərinə çevirmək istəyirdilər. Bu işdə erməni "Daşnaksutyun" partiyası da yaxından kömək edirdi. Beləliklə, 1918-ci ilin martın 30-da bolşevik-daşnak qüvvələri Bakıda azərbaycanlıların kütləvi qırğınına başladılar. Düşmənlər qocaya, qadına, hətta azyaşlı körpə uşaqlara da vəhşicəsinə qanlı divan tutdular, insanları süngüdən keçirərək diri-diri yandırdılar, evlərini dağıtdılar. Aprelin 3-dək minlərlə müsəlman əhali qətlə yetirildi.

Mart soyqırımı nəticəsində ümumilikdə 30 mindən çox, o cümlədən, Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirildi. Milli memarlıq abidələrimiz, məktəblər, xəstəxanalar, məscidlər və digər binalar dağıdıldı. Bakının böyük bir hissəsi xarabalığa çevrildi, nadir memarlıq abidəmiz olan "İsmailiyyə" binası, Tağıyev teatrı, "Açıq söz" və "Kaspi" qəzetinin redaksiyaları yandırıldı, "Təzəpir" məscidi dağıdıldı. Bu qırğınlar təkcə Bakıda deyil, Qarabağda, Naxşıvanda, Göyçayda, Şamaxıda, Qubada, Kürdəmirdə, Salyanda və Lənkəranda törədilmişdi. Mart hadisələri ilə bağlı məlumatların çoxu məhv olunduğu üçün yenidən araşdırılır. Son araşdırmalara görə təkcə Şamaxı şəhərində təqribən ermənilər tərəfindən 14-16 min nəfərin, onun 40 kənd və obasında 6-8 min nəfərin öldürüldüyü bildirilir. Didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub. Quba qəzasında isə ümumilikdə 4 min nəfərdən artıq olduğu bildirilir. Bu soyqırım nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılıb, 2750 ev yandırılıb.

2007-ci il aprelində Quba stadionunun təmiri ilə əlaqədar qazıntı işləri aparılan zaman kütləvi məzarlıq aşkarlanmışdı. Məzarlıqda 500-dək insan kəlləsi vardı, onların 50-dən çoxu uşaqlara, 100-dən çoxu isə qadınlara məxsus idi. Bu insanların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımın qurbanı olduğu sübuta yetirildi. Araşdırmalar göstərir ki, ermənilər dinc əhaliyə divan tutarkən odlu silahdan istifadə etməyiblər, sümüklərdə güllə yeri yoxdur, buradakı soydaşlarımız başlarına küt alətlə, mismar vurmaqla qətlə yetirilib, sonra isə quyulara doldurulub üzəri torpaqla örtülüb.

Ermənilərin xalqımıza qarşı törətdiyi Mart soyqırımı faciəsinin araşdırılması və bu həqiqətlərin dünyaya yayılması işi Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə başlandı. 1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı" haqqında Prezidentin fərmanında həmin dəhşətli hadisələrə siyasi qiymət verildi, 31 Mart - Azərbaycanlıların soyqırım günü elan edildi. Həmin fərmanın icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsilə bağlı Ulu öndər Heydər Əliyev 30 mart 1999-cu ildə tədbirlər planı təsdiq etdi.

31 Mart soyqırımı təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, bu soyqırım haqqında həqiqətlərin dünya ictimiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Xalqımızın başına gətirilən bu müsibətlər, faciələr dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə tədqiqatçılar tərəfindən qəti şəkildə araşdırılır, yeni faktlar üzə çıxarılır. Məhz xalqımızın tarixi yaddaşının qorunması və soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Prezident cənab İlham Əliyev 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırım memorial kompleksi" yaradılmasına qərar verdi və Soyqrımı memorial kompleksinin açılışı zamanı çıxış edərək dedi: "1918-ci il mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırım törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız faşizmin qurbanı olmuşdur... Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlə və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir". Eyni zamanda, bolşevik-daşnak silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə düzgün çatdırılması məqsədilə Prezident cənab İlham Əliyev 18 yanvar 2018-ci ildə "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzaladı.

Xalqımız ona qarşı törədilən bu cinayətləri heç vaxt unutmayacaq, daim güclü və mübariz xalq kimi yaşayacaq.

İradə ƏLİYEVA

N.Fərəczadə adına 100 nömrəli tam orta məktəbin tarix müəllimi, Əməkdar müəllim

**525-ci qəzet.- 2023.- 29 mart.- S.6.**

# 31 Martdan 105 il sonra...

***Bir daha tarix kitablarımızı qan yaddaşımızla təzələmək bizə qismət olmasın...***




Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan 1918-ci mart qırğınlarından 105 il ötür. Şaumyanın rəhbərlik etdiyi "Bakı Soveti"nin daşnak-bolşevik hərbi qüvvələrinin müsəlman azərbaycanlıların "sovet hakimiyyətinə qarşı çıxması" bəhanəsi ilə Bakıda və ətraf kəndlərdə, eləcə də Şamaxıda, Qubada, Lənkəranda, Gəncəbasarda, Qarabağda törətdiyi qırğınlarda on minlərlə insan qətlə yetirilmişdi. Ermənilərin azərbaycanlılara qarşı kütləvi qırğınları 1918-ci ilin martından öncə və sonra həmçinin Qərbi Azərbaycanda – indi Ermənistan adlandırılan ərazilərdəki yüzlərlə kənddə, yurd yerimiz Zəngəzurda, tarixi şəhərimiz İrəvanda həyata keçirilmişdi.

1918-ci il qırğınlarının ən qanlı günü isə martın 31-də Bakıda yaşanmışdı. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının memarlıq incilərindən sayılan "İsmailiyyə" binasına od vurmuş, şəhərin bir hissəsini xarabalığa çevirmişdilər...

Prezident Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda bu acı hadisələrə və ümumilikdə XIX əsrin əvvəlində Şimali Azərbaycanın Rusiyaya ilhaqından sonra ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasətinə tarixi-siyasi qiymət verilib. Sənəddə erməni millətçi qüvvələri tərəfindən azərbaycanlılara qarşı 1905-1907, 1918-ci illərdə həyata keçirilmiş qətliamlar, azərbaycanlıların Ermənistan ərazisindəki tarixi yurdlarından 1948-1953-cü illərdəki deportasiyası, 1988-ci ildə Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmənin aparılması, bu prosesin Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində davam etməsi təhlil olunub. Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

105 il öncə tariximizə düşən bu gün 25 ildir müstəqil Azərbaycanın rəsmi təqvimindədir. Qan yaddaşımızdan isə, əslində, heç vaxt itməmişdi, sadəcə, bir neçə onillik unutdurulmağa çalışılmışdı.

Tarix kitabları ötəri, xalqın qan yaddaşı əbədidir. Bir daha tarix kitablarımızı qan yaddaşımızla təzələmək bizə qismət olmasın...

**Mədəniyyət.- 2023.- 31 mart.- S.1.**

# 31 Mart soyqırımı: təməl insan haqlarına qarşı qanlı qəsd




Erməni daşnakların bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımından 105 il ötür. 1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən, çoxlu sayda qoca, qadın və uşağın qətli ilə nəticələnib.

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə edib. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulub, ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırıblar.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən, 2560 qadın və 1277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul edib. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılıb, kitablar dərc olunub. 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayıb. Həmin gündən 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunur.

Millət vəkili Ceyhun Məmmədovun dediyinə görə, 31 Mart soyqırımı hadisəsi təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində ən qanlı faciələrdən biridir. Daha əvvəl Qafqaz xalqları sırasında olmayan ermənilərin indiki Ermənistan adlanan əraziyə yayılmaları mürəkkəb bir tarixə malikdir. Qonşu xalqların torpaqlarını zəbt edərək "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədi güdən ermənilər tarix boyunca soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər: "Bu soyqırım hadisələrinin ən dəhşətlilərindən biri də daşnak-bolşevik silahlı dəstələri tərəfindən 1918-ci ilin mart-aprel aylarında qəddarlıqla

törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri tərəfindən on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə kütləvi şəkildə qətlə yetirilmiş, işgəncələrə məruz qalmışdır. Bir çox qədim binalar, tarixi abidələr, o cümlədən ziyarətgahlar, dünya memarlığının incilərindən sayılan İsmailiyyə binası top atəşinə tutaraq dağıdılmışdır. Rəsmi mənbələrə əsasən, bu soyqırımın nəticəsində Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri tərəfindən 30 mindən çox azərbaycanlı qətlə yetirilib, 10 minlərlə insan öz torpaqlarından qovulub".

Millət vəkili bildirib ki, bu soyqırımı hadisəsi tək Azərbaycan tarixində deyil, bəşər tarixində ən qanlı faciələrdən biri hesab olunur: "Bu faciədə dinc, silahsız türk-müsəlman əhali ilə yanaşı, minlərlə ləzgi, tatar, talış, avar, kürd və digər xalqların nümayəndələri, o cümlədən, uşaqlar, qadınlar, qocalar etnik mənsubiyyətlərinə görə amansızcasına qətlə yetiriliblər. Ermənilər uşaqlara acımadıqları kimi yaşlılara və gənc qadınlara da rəhm etməyiblər. Planlı şəkildə Azərbaycan xalqına qarşı törədilmiş bu kütləvi soyqırımı faciəsində "Daşnaksutyun" partiyasının iştirakı danılmazdır. Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik silahlı dəstəsinin iştirak etdiyi soyqırımında dinc sakinlərin yaşadığı məhlələrə qəflətən basqınlar edilərək uşaqdan böyüyədək hər kəs qətlə yetirilmişdir. Bu bir daha onu göstərir ki, Bakı Soveti əslində daşnakların və erməni zabitlərinin rəhbərlik etdiyi cinayətkar hərbi-siyasi rejim idi. Bu faciədə öz miqyasına, qurbanların sayına və vurduğu maddi-mənəvi ziyanın ölçüsünə görə Şamaxı və Quba hadisələri ayrıca yer tutur. Yerli tədqiqatçılarımızın apardığı araşdırmalara əsasən Şamaxı qırğınları zamanı ermənilərin tərəfindən 15 mindən çox dinc sakin öldürülüb, 18 min nəfərdən çox insan öz yurd-yuvasından didərgin düşüb, bütün məscidlər, tarixi abidələr yerlə-yeksan edilib, şəhərin məşhur Cümə məscidi oraya sığınmış uşaqlar, qadınlar və qocalarla birlikdə yandırılıb. Quba qırğınları zamanı isə qətlə yetirilmiş insanların sayının 4000 nəfərdən artıq olduğu qeyd olunur. Bu soyqırımı nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılmış, 2750-dən çox ev tamamilə yandırılmışdır. Araşdırmalar zamanı məlum olan faktlar göstərir ki, öldürülmüş insanların baş nahiyəsindən balta ilə vurub sonra xəncərdən istifadə etməklə başı bədəndən ayırıblar. Öz vəhşi əməllərindən əl çəkməyən ermənilər bəzi insanları başına mismar vurmaqla qətlə yetirmişlər. Bu qırğınlar zamanı öldürülən insanlar su arxlarına və quyulara doldurulub, üzəri torpaqla örtülmüşdür".

C.Məmmədovun sözlərinə görə, müstəqillik illərindən sonra Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart Soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya çatdırılması işinə başlanılıb. Heydər Əliyev Azərbaycanın Prezidenti kimi 1998-ci il martın 26-da Azərbaycan xalqına qarşı törədilən bütün soyqırım faciələrini qeyd etmək məqsədi

ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması barədə Fərman imzalayıb. Bu Fərmandan sonra 1918-ci il soyqırımı hadisələrinin öyrənilməsi istiqamətində xüsusi işlər görülmüş, çoxlu əsərlər yazılaraq xarici dillərə tərcümə olunub. Həmin Fərmanın icrasının davamlı şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər Heydər Əliyev tərəfindən 30 mart 1999-cu ildə tədbirlər planı təsdiq edilib. Quba soyqırımı məzarlığı 2007-ci ildə şəhərdə stadionunun təmiri ilə əlaqədar aparılan qazıntı işləri zamanı aşkar edilib. Məzarlıqda 500-dək insan kəlləsi var. Bu insanların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı zamanı öldürüldüyü sübuta yetirilib. 2009-cu ildə Prezident İlham Əliyev sərəncamı ilə Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılması və abadlıq işlərinin aparılması barədə qərar vermişdir. Quba şəhərində Qudyalçayın sol sahilində inşa edilən həmin Memorial kompleks 2013-cü il sentyabrın 18-də açılıb: "Prezident İlham Əliyev tərəfindən 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalanıb. Bu sərəncamın imzalanmasında əsas məqsəd 100 il əvvəl erməni-bolşevik silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən kütləvi qırğınlar barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha ətraflı çatdırılması idi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən diplomatiyalar nəticəsində Ermənistanın dövlət səviyyəsində yeritdiyi terrorçuluq və hərbi təcavüz siyasəti ifşa olunur, Azərbaycanın haqq səsi daha ucadan eşidilir".

Millət vəkili Musa Qasımlı bildirib ki, 1918-ci il martın 31-də Bakı şəhərində və Bakı Quberniyasının müxtəlif yerlərində azərbaycanlılara qarşı törədilən soyqırım o vaxtadək həyata keçirilmiş qırğınların davamı və zirvəsi idi. Ona qədər erməni silahlıları ilə azərbaycanlılar arasında İrəvanda Bazar meydanında, 1905-1906-cı illərdə Cənubi Qafqazın müxtəlif yerlərində, Birinci Dünya müharibəsi illərində Şərqi Anadoluda, Rus-Qafqaz cəbhəsi dağıldıqdan sonra Cənubi Azərbaycanda, İrəvan Quberniyasında, Tiflis Quberniyasının Borçalı mahalında və indiki Azərbaycan respublikasının müxtəlif ərazilərində törədildi. Bakı və Abşeronu türksüz, müsəlmansız bir əraziyə çevirmək, Azərbaycanın istiqlala gedən yolunu dayandırmaq, Bakı neftinə sahib olmaq, Avrasiyaya gedən yola yiyələnmək soyqırımın törədilməsində əsas məqsəd idi.

Onun sözlərinə görə, Qafqazda müxtəlif dövlətlərin maraqları toqquşurdu: "1917-ci ilin noyabrında Bakıda qurulmuş, Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti antiazərbaycan siyasəti yürüdürdü. Törədilmiş qırğınlara bəhanə olaraq Hacı Zeynalabdin Tağıyevin oğlunun Lənkərandan nəşinin gətirilməsi və yaranan qarşıdurma göstərildi. Danışıqlar nəticə vermədiyindən ilk atəş açıldı, Bakı Sovetinin erməni daşnaq qüvvələrinin birgə iştirakı ilə azərbaycanlılara qarşı soyqırımı həyata keçirildi və bu proses ən amansız metodlarla törədildi. Bu soyqırımı nəticəsində ingilis mənbələrində yazıldığı kimi Bakıda müsəlman əhalinin dörddə biri öldürüldü. O zaman Bakı şəhərində bütövlükdə 280-300 min nəfər əhali yaşayırdı. Onların 80-100 min nəfəri azərbaycanlı, 80-100 min nəfərin dörddə biri isə 20-25 min nəfər edir. Soyqırımın törədilməsinə baxmayaraq, azərbaycanlıları

qarşıya qoyduqları məqsəddən döndərə bilmədilər. Millətimiz bir neçə ay sonra, yəni 1918-ci ilin mayın 28-də müsəlman şərqində ilk dəfə olaraq Xalq Cümhuriyyəti qurdu, sentyabr ayında isə Bakı şəhərini azad etdi. Bakı Azərbaycanın paytaxtı oldu, Azərbaycan milləti öz təbii sərvətinə sahib oldu. Bu hadisəyə qiymət vermək üçün Azərbaycan Xalq Cümhuriyyəti nazirlər şurası iyulun 15-də fövqəladə tədqiqat komissiyası yaratdı. Bu komissiya soyqırıma məruz qalanların yaxınları ilə görüşdü və 36 cildlik materiallar topladı. Sovet dövründə bu hadisə düşünülmüş şəkildə unutduruldu. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk dəfə Ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı 31 mart azərbaycanlıların soyqırımı günü kimi qəbul edildi. Biz bu tarixdən böyük ibrət dərsi almalıyıq. İlk dəfə olaraq son 200 ilə yaxın müddətdə ermənilərə ən ağır zərbəni Prezident İlham Əliyev 44 günlük müharibədə qazanılan qələbə ilə vurdu. Soyqırımı qurbanlarının xatirəsini indi həm hüzn və ehtiramla, həm də onların qisasını aldığımız üçün qürur hissilə anırıq".

Sevinc Qarayeva

**525-ci qəzet.- 2023.- 1 aprel.- S.23.**

# Mühacirlər mart qırğını haqqında

Xalqımızın tarixində və taleyində misli görünməmiş Mart faciəsinin əsl mənzərəsi, mahiyyəti on illərlə gizlədilmiş, saxtalaşdırılmışdır. Tarix elmləri doktoru Ataxan Paşayev bu barədə “Açılmamış səhifələrin izi ilə” kitabında haqlı olaraq yazır: “Bakıdakı qanlı Mart hadisələri sovet dövrü tarixçiləri tərəfindən tarixi faktların və sənədlərin əksinə olaraq, bu qırğını bir millətin başqa millətə qarşı ədavəti nəticəsində həyata keçirdiyi soyqırımı siyasəti deyil, ümumrusiya vətəndaş müharibəsinin tərkib hissəsi, sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsi və onların əksinqilab üzərində böyük qələbəsi kimi təqdim edilmişdir”. Bununla belə, elavə etmək yerinə düşərdi ki, “sovet dövrü tarixçiləri” xorunda erməni ah-zarı, naləsi ilə pərdələnmiş özünəməxsus bir saxtakarlıq da diqqəti cəlb edir. Yalnız üzdəniraq “partiya və dövlət xadimi, alim və pedaqoq, kommunist və vətəndaş” (Henri Azatyan) Con Kirakosyanm “Gənc türklər tarixin məhkəməsi qarşısında” (Yerevan, “Ayastan” nəşriyyatı, 1986-cı il) kitabını  vərəqləmək kifayətdir ki, tarixin nə qədər təhrif edildiyinin, qərəzlə qələmə alındığının şahidi olasan.



Sovet rejiminin və xəstə erməni təxəyyülünün məhsulu olan bu cızma-qarada əslində mənfur rus-ingilis siyasətinin alətinə çevrilənlərə – ermənilərə qarşı regionda, guya, ardıcıl şəkildə genosid həyata keçirildiyi qələmə alınır, erməni terrorçular, qatillər, başkəsənlər, qaniçənlər isə, "xalq qisasçıları" adı ilə oxuculara təqdim edilir, guya Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərə divan tutulduğu həyasızcasına qeyd olunur.

Mart qırğını ilə bağlı həqiqət yalnız son illərdə söylənilməyə başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 1998-ci ildə imzaladığı Fərmana uyğun olaraq, həmin vaxtdan hər il 31 Mart Azərbaycan xalqının soyqırımı günü kimi dövlət səviyyəsində qeyd olunur, soyqırımı qurbanlarının xatirəsi yad edilir. Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar mühüm sənədlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökumətlərindən ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətlərini tanımasını, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli tədbirlər görülməsini xahiş etmişdir. Yeri gəlmişkən, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1919 və 1920-ci illərdə martın 31-i milli matəm günü kimi qeyd olunmuşdur.

Mart qırğını haqqında illər boyu susmayan və susdurula bilməyən tək səs mühacir səsi olmuşdur. "Yeni Qafqasya", "Azəri-türk", "Odlu yurd", "Bildiriş", "İstiqlal", "Qurtuluş", "Azərbaycan" (Ankara) və başqa mətbu orqanlar, mühacirətin digər nəşrləri bu mövzunu daim diqqət mərkəzində saxlamış, soyqırımı qurbanlarının xatirəsini yad etmiş, cəllad S.Şaumyan başda olmaqla erməni qatillərin əməllərini lənətləmişlər.

M.Ə.Rəsulzadə 1922-ci ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan Cümhuriyyəti: keyfiyyəti – təşəkkülü və indiki vəziyyəti" adlı əsərinin "Qardaş Türkiyənin yardımı" adlı hissəsində Mart faciəsinin törədilməsi səbəbləri və bu dəhşətli cinayətin miqyası barədə ətrafl ı bəhs edir. Müəllif, bolşeviklərin Azərbaycan türklərinin azadlıq uğrundakı mücadiləsini qanlar və xarabalıqlar içində boğmağa çalışdığını, məqsədinə çatmaq üçün ermənilərdən istifadə etdiyini yazır. M.Ə.Rəsulzadənin adı çəkilən əsərindən yalnız bir neçə sitat gətirməklə mövcud mənzərə haqqında geniş təəssürat yaratmaq olar: "Qətledilənlər arasında… minlərcə qadın, cocuq və ixtiyarlar vardı"; "Müsəlman məhəlləsinin başına od yağdırılır, cəhənnəm püskürdülürdü"; "Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Salyan, Quba, Nəvahi, Kürdəmir kimi qəza və qəsəbələr də məruz qaldı. Bu təcavüzlər əsnasında dağıdılan evlərin, qıyılan irz və namusların, doğranan ər və arvadların, talan edilən mal və dövlətin təsviri bir facia təsəvvürü yaradır".

M.B.Məmmədzadənin 1937-ci ildə qələmə aldığı və 1938-ci ildə Berlində “Qurtuluş” jurnalının mətbəəsində çap etdirdiyi “Milli Azərbaycan hərəkatı” adlı əsərində deyilir: “Şaumyanın Tifl isdə inqilab təşəbbüsü nəticə verməmiş, gürcü əsgərini Seym əleyhinə qaldıra bilməmişdi. Bundan sonra Şaumyan öz qərargahını Bakıya köçürmüşdü. Burada şərait əlverişli idi. Şəhərdə cəbhələrdən qayıtmış 20-25 minlik silahlı erməni və rus əsgəri vardı. Bundan başqa, Xəzər dənizində rus hərbi donanması, Bakının neft mədənlərində rus və erməni fəhlələri vardı. Şaumyan bu qüvvələrə arxalanaraq martın 31-də qırğına başladı və üç gecə davam edən, 15 min silahsız və günahsız türkün ölümü ilə nəticələnən bu qırğın zamanı Bakı havadan, dənizdən və qurudan bombardman edildi, məscidlər dağıdıldı, maarif və mədəniyyət müəssisələri, mətbəə, teatr, məktəb, kitabxana və s. od vurularaq yandırıldı”.

Azərbaycan mühacirlərinin 1932-ci ildən Berlində nəşr etdirdikləri “İstiqlal” qəzeti də Mart faciəsi ilə bağlı materiallar dərc edirdi. Qəzetin 1933-cü il aprel ayının 1-də buraxılan 31-ci nömrəsində mövzu ilə əlaqədar iki material verilmişdir: “Bir qırğının on beş illiyi” və “31 Mart”.

Mirzə Bala Məmmədzadənin qələmə aldığı “Bir qırğının on beş illiyi” adlı irihəcmli yazıda 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində bolşeviklərin təhriki və yardımı ilə ermənilərin törətdiyi faciə bütün çılpaqlığı ilə işıqlandırılır. Digər tərəfdən isə, regionda mövcud ictimai – siyasi şərait dəyərləndirilir, bu tarixi cinayətin yaranması səbəbləri göstərilir. Məqalədə deyilir: “Qafqaz millətlərinin əl-ələ verərək milli istiqlal və milli hakimiyyətə doğru irəliləmələrinə mane olmaq üçün Moskva ən şeytani tədbirlərə əl atırdı”.

Leninin Cənubi Qafqaz üzrə Fövqəladə Komissar təyin etdiyi S. Şaumyanın çirkin niyyətləri Tiflisdə baş tutmadıqda, o, Bakıya gəlir. Moskva nökərinin burada geniş fəaliyyət göstərməsi üçün şərait nisbətən qənaətbəxş idi. 1918-ci ilin əvvəllərində V.İ.Leninin və İ.V.Stalinin imzaladıqları bədnam 13 nömrəli dekretlə Moskva Türkiyənin 6 vilayəti hesabına Qafqazda Ermənistan hökuməti yaratmaq niyyətini güdürdü.

“Bu oyunla Moskva ermənilərə istinadən Qafqazda yerləşmək istəyirdi. Eyni zamanda Şaumyan, Arakelyan, Ter-Mikael-yan, Saakyan Astraxan, Petrovsk, Krasnovodsk və İran yolu ilə cəbhədən dönən erməni alaylarmı Bakıda toplayır, onlarla ruslardan ibarət “Qızıl Ordu” təşkil edirdi. Bu surətlə sırf ermənilərdən ibarət mütəşəkkil Qızıl Ordunun başına cəllad Avakyan keçmişdi.”

Məhz bu qüvvə ilə 31 Mart qırğını törədilmişdi. "Bu qətliamla 3 gün içərisində 15 min günahsız azərbaycanlının qanı axıdılmış, mülklər, xanimanlar yerlə-yeksan edilmiş, hər tərəf qana qərq olmuşdu. Tam 3 gün 3 gecə yerdən, göydən və dənizdən Bakıya bomba və qumbaralar yağmışdır. Bu qətliam Bakı ilə məhdudlaşmamış, Şaumyan, Avakyan, Arakelyan, Amazaps və Lalayanın "qızıl qəhrəmanları", öz təbirləri ilə desək, "Türkiyənin Bakı cəbhəsini yardıqdan" sonra üzü şimala – Qubaya, qərbə – Şirvana və cənuba – Muğan və Lənkərana keçərək on minlərlə azərbaycanlını qılıncdan keçirmişlər. Şərqi Azərbaycan Respublikası başdan-başa od içində yanırdı". Şamaxıda Əmirov, Salyan, Muğan, Lənkəran və Astarada Lalayev və onların çətələri "ev-ev dolaşaraq olmazın həyasızlıqlar edir, əhalini qılıncdan keçirir, qadın və qızlara işgəncələr verirdilər".

"İstiqlal"ın həmin nömrəsində "V.Nuh oğlu" imzası ilə təqdim edilən "31 Mart" adlı məqalə bəşər tarixində görünməyən erməni vəhşiliyini təsəvvür etmək üçün dəyərli mənbədir. Müəllif "mart günlərini fotolarla təsbit etmiş" bir çox iranlı, polyak, gürcü və s. əcnəbiləri tanıyır və yazdıqlarında da daha çox onlara istinad edir.

Yazı isə belə başlayır: "1918-ci il 22 martda Bakının "İsmailiyyə" binasının möhtəşəm salonunu milli musiqi, rəqs, qəhqəhə, sevinc və gülüş səsi titrədirdi….Millət Novruz bayramını qarşılamaqda idi.

Bir həftə sonra, 31 martda isə, o tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatlarının, kitabxana, qiraətxana, yetimlər evinin yerləşmiş olduğu bu qoca saray quru bir vücud halında matəm içindəydi. Yandırılmışdı. Yandırılan bir tək "İsmailiyyə" deyildi: türklərə məxsus bütün mətbəələr, mətbuat idarələri, milli teatr binaları, məktəblər, xəstəxanalar, məscidlər, milli-mədəni müəssisələr yerlə-yeksan edilmişdi".

Müəllif bir həftə içərisində Bakının simasının tanınmaz dərəcədə dəyişdiyini, 15 min günahsız türkün qanı axıdıldığını kədərlə qeyd edir, sonra qəzəblə yazır: "Günün qəhrəmanları Şaumyan, Avakyan, Arakelyan, Ter-Mikosyan, Saakyan, Lalayan, Amazaps, Əmiryan və b. idi".

Müəllif daha sonra Bakı faciəsini gözləri ilə görmüş M.Kulka adlı əcnəbinin dediklərini qələmə alır: "Erməni əsgərlər müsəlman məhəllələrinə girib əhalini öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, uşaqları odun içərisinə ataraq diri-diri yandırır, üç-dörd günlük südəmər körpələri isə süngülərinə taxırdılar".

Erməni vəhşiliyini gözləri ilə görən şahid nəql edir ki, öldürmədikləri qadınların saçlarını bir birinə bağlayaraq çılpaq bir şəkildə küçələrə sürüyür, bədənlərinə tüfəngin qundağı ilə zərbə endirirdilər. Heç kimə rəhm etmirdilər: uşaqlar kimi ixtiyarlara da aman yox idi.

Məqalə müəllifi fotolarda əksini tapmış dəhşətli mənzərələri isə belə təsvir edir: "Mələk qədər sevimli bir azərbaycanlı körpə Bakının bir divarına mıxlanmışdır. Mıx körpənin düz ürəyinin üstündən vurulmuşdur; bir yığın qızlı-oğlanlı uşaq ölüləri, üzərində qocaman çoban köpəkləri, onlardan biri məsum bir körpəni gəmirir…; çılpaq bir qadın ölü vəziyyətdə yerə sərilmiş, bu ölü vücudun qurumuş döşlərini bir yavru əmməkdədir".

Müəllif bütün bunlardan sonra yazır ki, mən minlərlə qız və qadınların əsir götürüldüyünü, "Rekord" teatrının o gün məhşəri andıran mənzərələrini və s. qeyd etmirəm. Çünki 31 Martı xatırlamaq və canlandırmaq üçün bunlar da kifayətdir…

Azərbaycan Kültür Dərnəyinin 1952-ci ildə Ankarada nəşr etdirdiyi "Azərbaycan" jurnalı 31 Mart faciəsi mövzusuna dəfələrlə toxunmuş, bu tarixi cinayətin əsl mahiyyətini açıb göstərmiş, bolşeviklərin fitvası ilə ermənilərin törətdiyi vəhşilikləri lənətləmişlər.

Bu mənada M.B.Məmmədzadənin jurnalın 1958-ci il may-iyun ayında nəşr edilən 2-3-cü nömrələrində dərc olunmuş "Qafqaz məmləkətləri istiqlal elanının 40-cı ildönümü münasibətilə" adlı iri tədqiqat əsəri xüsusi əhəmiyyət kəsb edir. Müəllif Rusiyada 1917-ci il fevral inqilabından sonra Qafqazdakı vəziyyət, Müvəqqəti Qafqaz Hökuməti, Cənubi Qafqaz Seymi, Qafqaz istiqlalının elan edilməsi və s. haqqında dolğun tarixi faktlara, etibarlı mənbələrə əsaslanaraq, sanballı elmi əsər qələmə almışdır. Əsərin bir hissəsi "Qanlı bir qətliamdan sonra Bakıda qurulan Sovet hökuməti" adlanır.

M.B.Məmmədzadə yazır ki, azərbaycanlılar çarlıq dövründə əsgəri mükəlləfiyyətdən azad olunduqlan üçün onların silahlı qüvvələri yox idi. Bu vəziyyətdən bolşeviklər və ermənilər istifadə edərək dinc əhaliyə qarşı misli görünməmiş vəhşilik törətdilər.

Məqalədə deyilir: "Silahlı çətələr silah və ərzaq axtarmaq bəhanəsilə ev-ev dolaşaraq kişiləri öldürür, qız-gəlinləri əsir götürür, hamilə qadınların qarnını süngüləyir, məscidləri, məktəbləri, mətbəələri, kitabxanaları, xəstəxanaları, teatrları və tarixi binaları, evləri yandırırlar. Hadisədə sinif mücadiləsi və yaxud proletar inqilabı adı veriləcək heç bir nöqtə yoxdur. Mücadilə milli idi". M.B.Məmmədzadə yazır ki, 30 və 31 mart, 1 apreldə üç gün üç gecə sürən və sinif, zümrə, partiya, siyasi əqidə, yaş və cins fərqi gözləmədən yalnız türklər hədəfə alınmışdı.

Bütün bunlar haqqında xarici konsullar tərəfindən təsbit edilmiş fotolar, raportlar, xatirə və digər materiallar vaxtilə toplanmış və qismən də nəşr edilmişdir. (Mart hadisələri, Bakı, 1919-cu il; Rəsulzadə Məmməd Əmin, Azərbaycan Cümhuriyyəti, "İstiqlal" (xüsusi nüsxə), Bakı, 1919-cu il; "Yeni Qafqasya" (İstanbul, 1923-1928), "Azəri-türk" (İstanbul 1928), "Odlu Yurd" (İstanbul, 1929-1931), "Qurtuluş" (Berlin, 1934-1939), mart nüsxələri; Mirzə Bala Memmədzadə, Milli Azərbaycan hərəkatı (Berlin, 1938, səh. 129-132).

M.B. Məmmədzadə göstərir ki, on minlərlə türkün şəhadəti ilə nəticələnən bu qətliam, təxribat və talandan sonra 25 apreldə təşkil olunan 11 nəfərlik Bakı Soveti hökumətində 5 erməni, 3 rus, 1 gürcü və yalnız birisi bolşevik olmaq üzrə 2 nəfər azərbaycanlı vardı. Müəllif daha sonra hadisələri tarixi mənbələr vasitəsilə izləyir və yuxarıda adı çəkilən hissənin sonunda yazır: "Qafqaz konfederasiyasının dağılmasından sonra azərbaycanlılar 4 iyun 1918-ci il tarixdə Türkiyə ilə bir saziş imzalamış və bu müqavilənin 4-cü maddəsinə uyğun aldıqları əskəri yardım sayəsində Gəncə qapılarına qədər irəliləyən düşməni geriyə püskürtmüş və apreldən 15 sentyabra qədər davam edən qanlı savaşı zəfərlə nəticələndirməyə müvəffəq olmuşlar. Azərbaycanlıların bu zəfəri bütün Qafqazı sovet vəhşətinə məruz qalmaqdan qurtarmışdı".

Heç şübhəsiz, müəllif burada "sovet vəhşəti" ifadəsini azərbaycanlılarm bir millət kimi məhv edilməsi anlamında təqdim etmişdir. Doğrudan da, erməni quldurlarının Bakıdan başlanan qətliamı bir neçə istiqamətdə – Şamaxı, Göyçay, Salyan, Kürdəmir, Quba, Dəvəçi və başqa bölgələrdə amansızcasına davam etdirilir və dinc əhalinin qanına susamış erməni silahlıları istiqlal şəhəri Gəncəyə səmt götürürdülər. Digər tərəfdən Zəngəzuru işğal edib Qarabağa hücuma başlayan vəhşiliyi təsvirəgəlməz Andranikin də hədəfi ulu Gəncə idi. Tarixin bu amansız sınağından azərbaycanlıları qardaş türk əsgərinin süngüsü xilas etdi.

Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, ya zıçıpublisist, tərcüməçi, naşir və ictimai xadim Ceyhun Hacıbəylinin (1891-1962) mühacirət illərindəki yaradıcılığında diqqəti çəkən mövzulardan biri də erməni məsələsi, erməni vəhşiliyi, erməni xəyanəti, erməni fahişəliyi, erməni hiyləsi və məkridir. Onun 1918-ci il mart qır ğı nı haqqında 28 no yabr 1920-ci ildə qələmə aldığı "Mart faciəsinin ildönümü" adlı məqalə dövrün mənzərəsini işıqlandır maq baxımından əhə miyyət kəsb edir. Ceyhun bəyin ötən əsrin 50-ci illərində qələmə aldığı "Bir il xəyallarda… və bütöv bir ömür" adlı memuarın da nə az, nə çox – 59 dəfə murdar ermənilərin adlarını çəkərək, onların insana yaraşmayan xislət və əməllərindən bəhs edir. Uşaqlıq illərindən xatırladığı tanınmış həcv ustası, dükan sahibi Mirzə Cəfərin bir əsərinin məzmunundan bəhs edərkən göstərir ki, müəllif burada siyasi hadisələrə toxunur, yunan-türk müharibəsi zamanı ermənilərin osmanlılara hürdüyü dönəmin mənzərəsini verir.

Parisin hündür yerlərinin birində salınmış xiyabanda tamaşa göstərən, milli musiqini dinləyərək gəzişən, istirahət edən, oxuyan-yazan müsəlman gənclərinin hərəkəti paxıllıqdan qoca erməniləri haldan çıxarır: "Onların bu tərzdə davranışı yaşlı erməniləri aşkar hövsələdən çıxarır, onlar öz gəncliyinin şərəfinə toxunulmuş hesab edirdilər və bəzən bütün bunlar çəkişmələrlə nəticələnirdi". Müəllif yazır ki, ermənilər zahirən özlərini Qərbçi kimi göstərir və arvadlarının sayəsində malik olduqları mülk, malikanə və torpaq sahələrini əllərində saxlayırdılar. Əmlak münaqişələrində ermənilər münsiflər məhkəməsi hakimlərini "irqi münaqişələr"ə cəlb edəndə hakimlər adətən, öz dindaşlarına susmağı, lazım gələrsə, hətta … tövsiyə edir, eyni zamanda, dostyana məzəmmət etməyi də unutmurlar. C.Hacıbəyli qeyd edir ki, hakimlər ermənilərə iki yoldan birini seçməyi məsləhət bilirdilər: "bura baxın, ikisindən birini seçin, əgər siz tamamilə avropalaşmısınızsa, onda bir-iki avaranın arvadlarınıza baxmağına hirslənmək lazım deyil, yox, əgər siz elə bizim həmin ermənilərsinizsə (yaxın keçmişdə ermənilərin Azərbaycan bəylərinin təhkimli kəndliləri olduqları və müsəlmanlar kimi qapalı həyat tərzi sürdüklərinə eyham vurulurdu), onda arvadlarınızı çölə çıxarmayın, çarşab geyindirin". Memuaristin bir yuxusunda təsvir etdiyi hadisə ilgincdir. O, ermənilərlə bir yığıncaqdadır. İclası patriarx aparır. Ermənilər bizə xoş sözlər deyir, lakin səhər yeməyi təklif etmirlər. "Ton (çəki balığı – T.A.) balığı konservindən hazırlanmış yemək verirlər. Qonşularıma təklif edirəm, çəkinmədən hamısını götürürlər, mənə yeməyə heç nə qalmır. Bir az kolbasa qalır, müsəlman olduğuma görə onun dadadına baxmıram". Bu yuxu ilə müəllif patriarxın erməni cəmiyyətindəki rolunu göstərməklə yanaşı, onların xəbisliyinə, qonağa qarşı qeyri-etik münasibətlərinə işarə verir.

Erməni terrorçuların öz məqsədlərinə çatmaq üçün hər cür şərəfsizliyə, alçaqlığa əl atdığını yazan C.Hacıbəyli göstərir ki, doğrudur, erməni burjuaziyası terrorçu təşkilatların tələblərini ödəyir, onları yedirir, onlara maliyyə dəstəyi göstərir. Xidmətdən boyun qaçıran isə dərhal amansızcasına qətlə yetirilir: "Onların arasında Dəmirov adlı nadir gözəlliyi olan bir bankiri xatırlayıram. Tələb olunan məbləği ödəmədiyi üçün dərhal qətlə yetirildi, arvadını sakitləşdirmək olmurdu: deyilənə görə, qadın heç bir vəchlə sevimli ərinin cəsədindən ayrılmaq istəmirdi, mumiyalayıb saxlamaq istəyirdi".

Rus-yapon müharibəsinin qızğın vaxtında fürsətdən istifadə edən erməni terrorçular xüsusi ilə fəallaşmışdılar. İş o həddə çatmışdı ki, onlar rusları da hədəfə alırdılar. C.Hacıbəyli yazır ki, başlarını itirmiş nüfuzlu ruslar çıxış yolu axtarırdılar. Beləliklə, onlar "dahi" ideyalarını – "parçala və hökm sür" prinsipini işə saldılar və müsəlmanlarla erməniləri üz-üzə qoydular. Əsərdə, ümumiyyətlə, Qafqazda rus siyasətini faş və ifşa edən məqamlar çoxdur. Bu barədə bir qədər sonra bəhs edə cəyik.

1905-ci ildə ermənilərin törətdiyi vəhşilikləri xatırlayan müəllif yazır ki, Bakının, digər şəhərlərin, kəndlərin yüzlərlə evləri ağına-bozuna baxmadan alt-üst olundu, xeyli sayda əhalisi yandırıldı, vəhşicəsinə qətlə yetirildi. C.Hacıbəyli qeyd edir ki, qırğın bir müddət sonra başa çatsa da, kiçik bir hadisədən hər an yenidən od tutub alışmağa hazır idi. Belə də oldu. 1918-ci ildə ermənilər Bakıda, Azərbaycanın digər bölgələrində xalqımıza qarşı tarixdə görünməmiş vəhşilik törətdilər. Bu qırğın Qafqazın yenidən bolşeviklər tərəfindən ələ keçirilməsinə yardım etdi. Hər iki cəbhənin şovinistləri etiraf edirdi ki, sovetləşmədən sonra bu regionda qırğının olmaması onu deməyə əsas verir ki, bu xalqların böyük kütləsi münaqişədən kənardır və qırğın siyasət adam ları tərəfindən törədilmişdir.

"Rus idarəçiliyi tərəfindən qızışdırılan" 1905-ci il erməni-müsəlman davasından bəhs edərkən, C.Hacıbəyli yazır ki, bu qanlı qarşıdurmaların məsuliyyəti, şübhəsiz ki, erməni rəhbərlərinin üzərinə düşürdü; 1918-ci ildə də bolşeviklər və onların tərəfdarları Bakıda hakimiyyəti ələ keçirəndə, erməni silahlı dəstələri müsəlman əhaliyə qarşı xüsusi qəddarlıqla fərqlənmişdilər. Memuarist 5 gün davam edən döyüşləri bütün təfsilatı ilə qələmə alır. Şəhərin bir küçəsində azərbaycanlılar aman istəyən ermənilərə toxunmur, onlara sığınacaq verir, digər küçə də bundan istifadə edən erməni dəstəsi müsəlman bazarına soxulur, oranın ərzaq məmulatlarını talan edirdilər. Müəllif şahidi olduğu mənzərəni belə təsvir edir: "…hətta barışıq günü erməni məhəlləsindən qaçaraq keçmək istəyən 17 nəfər şikəst edilmiş adamın bədənlərini yerdə, yan-yana düzüldüyünü özüm öz gözlərimlə gördüm: bunlar yeni kollecin tikintisində işləyən, İran vətəndaşları – yazıq, bədbəxt həmşəri hamballar idi".

Bu münaqişəni bütün tərəfləri və təfərrüatı ilə işıqlandıran müəllif özünə ünvanladığı "Siz məndən soruşa bilərsiniz ki, bəs bu dava zamanı rus hakim dairələri necə oldular?" sualına belə cavab verir: "Bəli, onları nə yaxında, nə də uzaqda görən oldu, halbuki, şəhərdə olan bir neçə onluq əsgər dəstəsi münaqişənin qarşısını almaq üçün tam kifayət edərdi… Yalnız münaqişədən bir həftə sonra bir kazak "sotnyası" şəhərə daxil oldu. Onların kazarması şəhərin cəmi yeddi… kilometrliyində yerləşirdi".

Səlcuq Alkının "Azərbaycan tarixində 15 sentyabr, 1918" adlı məqaləsi ("Azərbaycan" jurnalı, 311-ci nömrə, sentyabr-oktyabr 1996-cı il) türk əsgərlərinin yardımı ilə Bakının azad olunmasına həsr edilmişdi. Müəllif əvvəlcə həmin dövr Qafqazda, o cümlədən Azərbaycanda ictimai-siyasi, tarixi mənzərəni işıqlandırır, daha sonra şanlı türk əsgərlərinin şücaətindən, Bakının azad olunmasından ətraflı bəhs edir.

Səlcuq Alkın yazır ki, 1918-ci ildə ermənilər bir neçə il əvvəl, xüsusilə 1905-1907-ci illərdə həyata keçirdikləri qətliamı təkrar etmişlər. Müəllif mənbələrə istinad edərək bildirir ki, erməni çətələri adı çəkilən illərdə 40 min türkü qətl etmişlər.

Hüseyn Baykara da özünün “Azərbaycan istiqlal mücadiləsi tarixi” (İstanbul, 1975) kitabında Mart qırğını haqqında ətrafl ı yazmışdır. Müəllif, Mir Cəfər Pişəvərinin xatirələrinə istinadən qeyd edir ki, o, daşnakların vəhşiliklərini, saysız günahsız adamların öldürülməsini, yandırılmasını, onlara işgəncələr verilməsini öz gözləri ilə görmüşdür(səh. 251).

Son dövr mühacir nəşrlərində də Mart faciəsi ilə bağlı materiallara təsadüf edilir. Bu mənada “Dağ yeli” nəşriyyatının (Almaniya) nəşr etdiyi “Qarabağın tarixi və ona dair sənədlər” əsəri, xüsusilə təqdirəlayiqdir. Həmin kitabın müəllifi Strasburqda (Fransa) yaşayan həmvətənimiz Əhməd Təbrizlidir. Fransız dilində buraxılan bu əsərdə onlarca mötəbər mənbəyə istinadən ermənilərin Azərbaycanda törətdiyi qırğınlardan, o cümlədən Mart faciəsindən ətraflı bəhs olunur.

https://1905.az/muhacirl%C9%99r-mart-qirgini-haqqinda/